Hüseyn Cavid-135

# Cavid poeziyasında qadın qəhrəmanlarının romantik bədii təcəssümü

**Şakir CƏFƏROV,**
*filologiya üzrə fəlsəfə doktoru*

## "Qadının cəmiyyətdə yeri böyük və şərəflidir, onun istismarı dözülməzdir"



Azərbaycanın dahi şairi və mütəfəkkiri Hüseyn Cavidin yaradıcılığında qadın problemi, ailədə və cəmiyyətdə qadına münasibət, qadının yeri və rolu məsələsi mühüm yer tutur. "Mənim tanrım gözəllikdir, sevgidir" - deyən şairi Azərbaycan və ümumiyyətlə, Şərq qadınının acı taleyi düşündürməyə bilməzdi. İyirmi iki pyes, yüzlərlə poema və şeirin yaradıcısı olan H.Cavidin əsərlərinin çoxu bilavasitə qadın adı ilə adlandırılmışdır ("Afət", "Maral", "Şeyda", "Şəhla" və s.). Cavidin təsvir etdiyi qadınlar müxtəlif millətlərə və zümrələrə aiddirlər və bir-birlərindən bir çox cəhətdən fərqlənirlər. Şair əsərlərində müasir qadınların cəmiyyətdə və məişətdə vəziyyətini və uzaq keçmişdə Şərq qadınlarının ağır həyatını da təsvir edir. Lakin istər müasir, istərsə keçmişdə yaşamış qadınların təsvirində Cavidin üsyankar, barışmaz, romantik ruhu özünü göstərir, onun qadına münasibəti, qadın məsələsinin həlli ilə bağlı fikir və düşüncələri əks olunur.

H.Cavidi feodal-burjua cəmiyyətində yaşayan və bu cəmiyyətin qurbanları olan bədbəxt, həyat sevincindən məhrum, nadanlığın, dini fanatizmin doğurduğu əxlaq normaları altında əzilən, pul ilə alınıb-satılan, öz ərləri tərəfindən alçaldılan, məhv edilən qadınların acı aqibəti daim düşündürür və şair bu ictimai ədalətsizliyə öz etirazını bildirir, insanlarda bu zülmə qarşı barışmazlıq hissi doğurmağa çalışır. Cavid qadının həyat faciəsini bütün cəmiyyətin faciəsi sayır, onu cəmiyyətdə mövcud olan ziddiyyətlərlə bağlayır, ədalətsiz ictimai qanunların nəticəsi kimi izah edir.

Maraqlıdır ki, Cavid mənfi planda təsvir etdiyi qadınları da ittiham etməkdən qaçmır və onların günahlarının səbəbini, hər şeydən əvvəl, cəmiyyətin onlara qarşı ədalətsiz münasibətində görür, qadını müdafiə etməyin əslində, ədaləti müdafiə etməyə bərabər olduğunu bildirir.

Qeyd etmək lazımdır ki, Cavidin qadın məsələsinə münasibəti, onun qadın haqqında görüşləri həmişə eyni olmamışdır və onlar zaman keçdikcə müəyyən dəyişikliklərə uğramışlar. Yaradıcılığının ilk dövrlərində qadını əsasən zəif, gücsüz, alçaldılan, təhqir olunan bir məxluq kimi göstərən Cavid, sonrakı dövrlərdə onları öz hüquqları uğrunda mübarizəyə qadir olan bir insan kimi səciyyələndirir. Məsələn, yaradıcılığının ilk dövrünə aid olan, "Bir qızın son fəryadı", "Vərəmli qız" və s. əsərlərində şair qadını yazıq, bədbəxt, fiziki və mənəvi əzab və iztirablar altında inləyən bir məxluq kimi təsvir edir. Bu əsərlərdə qadın qəfəsə salınmış, azadlıq həsrəti ilə çırpınan bir quşdur. Cavid bu şeirlərində qadınlara mərhəmət hissini ifadə edir, lakin onların bu çoxəsrlik zülmdən xilasolma yollarını görmür və buna heç bir ümidi yoxdur. Cavid düşünürdü ki, qadının azad olmasının, oyanmasının vaxtı hələ gəlib çatmamışdır. Şairi "qadının xilas olması yolları nələrdir? Əgər o, köləlik zəncirindən xilas olarsa, haraya gedəcək?", "Qadının cəmiyyətdə vəziyyəti necə olmalıdır?," "Onun cəmiyyətdə vəzifələri nələrdir?" - sualları düşündürürdü və o, bu suallara cavab axtarırdı.

### Yeni nəslin tərbiyəçisi, insanlığın anası

Zaman keçdikcə Cavidin bu məsələyə münasibəti müəyyənləşir və konkret şəkil alır. Məşhur "Qadın" şeirində o, artıq qadının acı taleyini təsvir, ona mərhəmət hissi ifadə etməklə, onun inciltilərini eşitməklə kifayətlənmir, cəmiyyətdə və ailədə rolu məsələsini ön plana çəkir, diqqəti bu məsələyə yönəldir. Qadın şairin nəzərində yeni nəslin tərbiyəçisi, insanlığın anasıdır. O yalnız öz övladlarının deyil, bütün millətin anasıdır.

H.Cavidə görə, qadının cəmiyyətdə yeri böyük və şərəflidir, onun istismarı dözülməzdir.

"Qadın" şeirində Cavid cəmiyyətdə ləyaqəti amansızca alçaldılan, bütün insan haqlarından məhrum olan qadına onun haqlarını, cəmiyyətdə layiq olduğu yeri qaytarmağın zəruriliyi fikrini ifadə edir. Bu şeirində o, M.Hadi kimi qətiyyətlə çadraya qarşı çıxır, onu "zülmətin pərdəsi" adlandırır.

Doğrudur, Cavid bir qədər əvvəl yazdığı "Pəmbə çarşaf" şeirində Azərbaycan və bütövlükdə Şərq qadınının çadra örtməsinə bir qədər sakit yanaşır. "Türkiyədə oxuduğu illərdə yazdığı "Pənbə çarşaf" şerinə baxılırsa, əvvəllər Cavid qadınların çadraya bürünməsinə nəinki pis baxır, əksinə, qadınların çadraya bürünməsində bir cazibə, bir incəlik görür, örtünü qadına bir ismət və şəraf sayır, onu obrazlı şəkildə "pənbə güllər əhatə qılan fidan" kimi mənalandırır".

Lakin qadına - çadraya münasibəti tədricən inkişaf edib təkmilləşmişən Cavid şeirində belə bunun uzun çəkməyəcəyini, bir gün qadının bu örtükdən azad olacağını bildirir.

### "Pərdeyi zülmət içindən sıyrıl"

Əvvəllər qadının bürünməsinə pis baxmayan Cavid sonralar qadının cəmiyyətdə heysiyyətinin tapdalanmasına, mənəvi əzablarına diqqətsiz qalmır, artıq qadının da azad olmasının vaxtının çatdığını dilə gətirir və "Pərdeyi zülmət içindən sıyrıl"malarını arzulayır.

Qeyd etdiyimiz kimi, H.Cavid də M.Hadi kimi çadranı qadınların düşməni sayırdı və qadının əsarətdən xilas olmasının yolunu onun maariflənməsində, elmə, biliyə yiyələnməsində, öz hüquqları uğrunda mübarizədə görürdü.

Hələ 1909-cu ildə yazdığı "Məsud və Şəfiqə" şeirində Cavid Azərbaycan cəmiyyətində "zülmət pərdəsini" yarıb xilas olan ziyalı qızları, əlverişsiz ictimai şəraitdə, mülkədar, tacir, mövhumatçı din adamlarının əhatəsində yaşayan və yavaş-yavaş öz haqq və hüquqlarını başa düşən, elmə, maarifə maraq göstərən ilk qadınların bədii obrazını yaradır.

Bununla yanaşı, Cavid feodal əxlaqının, şəriət qanunlarının, köhnəlmiş adət və ənənələrin möhkəm kök saldığı cəmiyyətdə, öz acı həyatını yaşayan və bu ümidsiz həyatdan xilas yolunu yalnız ölümdə axtaran zavallı qadınları yaddan çıxarmır, onları mülkədar dini əxlaqının qurbanları sayır. Bu qadın obrazları vasitəsilə Cavid qadına vəhşi münasibətin məişətdə və cəmiyyətdə nə qədər dərin kök saldığını göstərir, buna öz nifrətini və etirazını bildirir.

Sovet dövründə yaratdığı əsərlərdə də Cavid qadın azadlığı məsələsinə toxunur və bir sıra yeni tipli qadın obrazları yaradır. "Səlmanın səsi" şeirində Səlma, "Şəhla" pyesində Şəhla artıq azadlıq əldə etmiş, insanların hörmət və rəğbətini qazanmış, yeni cəmiyyətin qurulmasına və möhkəmlənməsinə xidmət edən qadınlardır.

### Beyinlərdə, düşüncələrdə, şüurlarda azadlıq

Lakin Cavid bu dövrdə yazdığı əsərlərdə çox mühüm bir məsələyə diqqət yetirir və cəmiyyətdə hələ əsl azadlıqdan məhrum olan qadınların mövcud olduğunu göstərir. "Azər" poemasında şair, çadraların atsalar da fikir və düşüncə tərzi ilə yeni həyatdan kənarda qalmış, yeniliyi modaya uymaqda görən, meşşanlıq bataqlığına qərq olmuş qadınlardan söhbət açır.

Azərbaycan qadınının çadradan xilas olmasını böyük tarixi hadisə kimi dəyərləndirən Cavid onun hələ tam azadlığa çatmadığını bildirir və bu azadlıq yolunda böyük bir maneənin - "mənəvi çadranın" mövcud olduğunu qeyd edir.

Şair haqlı olaraq qadın azadlığının və ümumiyyətlə, əsl azadlığın hər şeydən əvvəl, beyinlərdə, düşüncələrdə, şüurlarda qələbə çalmasının zəruriliyini vurğulayır və Azərbaycan qadınlarına azadlığın bu yüksək zirvəsini fəth etməsini arzu edirdi.

### Anaya ehtiram və məhəbbət

"Öksüz Ənvər", "İlk bahar", "Qız məktəbində", "Çiçək sevgisi", "Şərq qadını", "Qadın" şeirlərində və "Azər" poemasının "Azad əsrlər", "Səlmanın səsi" və başqa parçalarında H.Cavidin qadın, ana obrazına ayrıca müraciət etməsi önə çəkilir.

Anaya dərin ehtiram və məhəbbətlə yanaşan H.Cavid ana - qadın obrazını ilk dəfə lirik şeirlərində, sonra isə dram əsərlərində yaratmışdır.

Sözsüz ki, H.Cavidin qadınla bağlı o zamankı şeirləri onun gələcək dramlarındakı qadın obrazlarının kiçik nümunələri idi. Onun 1913-cü ildə Tiflisdə çap olunan ilk kitabının "Keçmiş günlər" adlandırılması da təsadüfi deyildir. Əslində "Keçmiş günlər" geniş mənada tarixi yaddaş və hətta uzaq gələcəyin əsası olan bir yaddaşdır. Bu vaxt "İqbal" qəzeti H.Cavidi Qafqazın bacarıqlı mühərrir və şairlərindən biri hesab edirdi. Çünki şairin qələmində Şəfiqənin ağrıları dil açır ("Məsud və Şəfiqə"), açılmadan solan bir gözəlin qüssəsi dalğalanır ("Otuz yaşında") və uyuyan qadını mübarizəyə çağırış nidaları səslənirdi ("Qadın").

H.Cavid lirik şeirlərində ümumi və romantik pafosla sanki bütün Şərq qadınlarına müraciət edib deyirdi: "Bu qədər ki, səndə lətafət və nəcabət var, nə üçün səbr edirsən, əsarətə və həqarətə dözürsən?! Ağlamaqla heç kim, hətta əriniz rəhmə gəlib fəryadınızı duymayacaqdır. Göz yaşları ilə hüququnuzu bərpa edə bilməyəcəksiniz. Yalnız çalışmaqla, mübarizə aparmaqla "pərdeyi-zülmət içindən sıyrılıb" qəhrəmanlar kimi çıxmaq olar".

H.Cavidə görə, cahanda sevgisiz yaşamaq mümkün deyil və bütün inkişafı, gözəlliyi yalnız məhəbbətin vasitəsilə qorumaq olar. O, qadınların müxtəlif quruluşlarda sevmək və sevilmək hüququndan məhrum olmalarına acıyır və onların həyat şəraitinin ağırlığı şairin ürəyinin başına od salırdı. "Bakıda" şeirində qəhrəmanı Şəfiqənin dili ilə deyirdi ki, həyatın dibində çırpınan bu zərif məxluqun çoxunun könlündə "gizli bir işvə var", lakin bu yazıqları "bəlayi-məişət həyatı məhv edəcək". "Ağır dəmirlərin altında", neft buruqlarında əzilən bu zavallıların məhəbbətləri, ləyaqətləri əzilir və onların varlıqları zəhərlənirdi. İşin ağırlığı onları gənc yaşlarından çiçək kimi soldurur, qarsır və bənizlərinə ləkə salırdı. Qadının bu ağır kölə həyatına yanan şair yazırdı: "Çocuq-çocuq, ana, həmşirə, qız, nişanlı, gəlin - vətəndə həm gözü yollarda müztərib, qəmgin...", cəhənnəm bir çölü andıran bu "hisli, çamurlu buruqlarda" "yığın-yığın bəşəriyyət" həyatı güldürəcək bir ümidlə yaşayır, çalışır, əlləşir, zəhərli qazlardan udub yarpaqtək solur. Ağır zəhmət və dərddən saralmış qadınların həyat əlaməti söndüyünə görə onlardan doğulacaq uşaqların da səadəti qaranlıq və təhlükəlidir. Şairə görə, dərin məzar içində "uyğuya dalmış" bədbəxtlərlə bu çamurluqda çalışan qadınların arasında fərq yoxdur.

### Elm, maarif və mədəni yüksəliş qadın azadlığında vacib amil kimi

"Şərq qadını" şeirində H.Cavid artıq qadının üsyankar səsini dinləyir. Keçmişin ən qaba, ən vicdansız, kirli dırnaqlarla didilən Şərq qadının dili ilə şair deyir ki, doğulan gündən tarixin paslı zəncirləri inlətdi məni, gün işığı görmədim. Hər tərəfdən qara bir mövhumat pərdələr çəkdi gözlərimə. Fəryad qoparanda din səsimi batırdı, "qaniçən sultanlar məni əyləncə sandı", gah da günahlandırıb Nil çayına, oda ataraq məhv etdilər. Ən dəhşətlisi bu idi ki, çirkin doğulanda quyuya atıb, diri-diri basdırırdılar.

Azad qadın problemini günün vacib məsələlərindən biri kimi qiymətləndirən, qadın azadlığında elmi, maarifi və mədəni yüksəlişi həlledici hesab edən H.Cavid qadını poetik yüksəkliyə qaldırır, özü də ona yüksəklikdən baxır və qadının məhz buradan görünən təbiətini oxucusuna göstərir.